Türk dünyası xalqlarının Mifik-Dünyəvi fəlsəfəsində -At/Kəhər kultu...

I yazı

Təqvim tərtibinin dini-fəlsəfi və mistik-İlahi Hökm dəyərləndirilməsində qəbul edilən 12 Heyvan surətləri sırasında At/Kəhər kultu Şərq xalqlarının mifoloji dünyadərki fəlsəfəsinin təməlini təşkil edir desək, yanılmarıq. İlk növbədə Avrasiya qurusunu özünə kökənli geniş Yurd sayan Türk qövmü üçün At/Kəhər soykökündən doğan həm də milli-mənəvi, maddi-irs, həyat-ictimai...yük daşıyıcısıdır. Və istər Ərən olsun, istərsə də Xatun...Türkün "Şah damarı" Atı/Kəhəri sanılır.

Səbəbsiz deyil ki, Türk mifologiyasında, epos-dastanlarında, şifahi nəzm-nəsr irsində....At/Kəhərlə bağlı başqa heç bir xalqlarda rast gəlinməyən saysız- hesabsız deyimlər və kultlar ("At igidin yaraşığıdır, nişanəsidir", "At murad, Şahin qanaddır", "At kişinin namusudur"...), coğrafi məkanlar (Qərbi Azərbaycanın Zəngəzur mahalı, Qapan nahiyəsində Atlıqız kəndi, Qobustan bölgəsində Atbulaq kəndi və Qara Atlı baba ocağı, Xaçmaz və Qusar rayonlarında İlxıçı və Atlıxan kəndləri, Göyçə mahalının Qaranlıq nahiyəsindəki At daşı/At qayası ÜmumTürk "Kitabi-Dədə Qorqud" eposunda "At düzü"nün eynisidir,...) mövcuddur...

Doğuda intəhasız Böyük Ümman sahillərindən Batıda iri dəryalar, çaylar sahillərindəki geniş düzəngahlara, yaylalara, uca dağlara qədər ucsuz-bucaqsız əraziləri tutan Avrasiya qurusu Türk xalqlarının əski yurdlarıdır ki, tarixən bu hüdudları Ulu soydaşlarımız məhz At/Kəhər belində fəthlər və zəfərlər qazanmışlar. Ümumilikdə Türk İgidləri/Alpları Kəhər Köhlənlər üzərində ya Qazi, ya Şəhid olmağı Ata ocağında Ana südü ilə Layla qarışıq əxz etmişlər., iliklərinə-sümüklərinə sinirmişlər. At belində ğmür sürmüş, qələbə salnamələri yazmış Alp Ərənlərinin adını yaşadan Alpout ("Alp İgid") toponiminə Türk coğrafiyasının hüdudlarında daha çox rast gəlinir.

Hun-Quz-Sak/Saxa....qəbilə-tayfa İttifaqlarının soy/şəcərə qollarından, etnogenetik Qan-Dil-Ailə... kökünə mənsub Oğuz/Türkmən Ərənləri də At/Kəhər belində ömür sürüblər, dini-sakral, maddi-mənəvi, tarixi-coğrafi...irs zənginliyində At kultu xüsusi yer tutur, Dərbənd nahiyəsindən, Bürc Əli/Borçalı mahalından Savalan dağınadək, qərbdə Araz çayı sahillərinədək, hələ bu coğrafiya Xəzər dənizinin Anadolu yaylasına qədər hövzəsidir. Qızıl qanadlı At/Kəhər kultunun xeyli zəngin, tarxi minilliklər səhifəsi Göy, Sarı, Səhra/Çöl, Savur/Sabir-Sibir Türklərinin...Sak/Saxa, Qıpçaq/Biçənək, Quz, Hun...qəbilə-tayfa İttifaqı soylarının imzası ilə yazılmışdır, Asiya qitəsində....Və yaxud, Anadolu yaylasından Sak/Saxa-lin adasınadək bütün ərazi eyni mədəniyyətin, Təbəddülat mərhələsinin eyni soyköklü olduğuna təkzibedilməz millimədəni təsdiq amilidir.

Tarixi sənədlər və məlumatlar bir daha sübut edir...ki, Türk xalqlarının bu milli-mənəvi və mədəni Kultuna/Rəmzinə qarşı düşmən hücumları son bir neçə yüz ildə xüsusilə daha da güclənmişdir, müdhis, iblisanə rus-hay birliyi yaranmaqla. Bu sırada rus tarixçisi və etnoqrafı N.Y.Marr (1865-1934) 1910-cu ilin dekabr ayında Rusiya Arxeologiya Cəmiyyətində çıxış edərkən (sonralar çap etdirdiyi əsərində də) belə bir elmi əsası olmayan (yalnız Qərbi Azərbaycanın Göyəm dağlıq qurşağında Toxmağan gölü hövzəsində hay əsilli qadınlarla apardığı arxeoloji tədqiqat nəticələrinə görə) mülahizə irəli sürmüşdür ki, guya, haylar atı əhliləşdirən və buğda səpini aparan qədim xalqdır...amma, sonralar, 1926-cı ildə digər rus alimi, akademik,N.İ.Vavilov (1887-1943) dünya mədəni əkinçilik ocaqlarını tədqiq etməklə, mədəni bitki toxumlarının kolleksiyasını yaratmaqla sübut etdi ki, ilk və qədim əkinçilik mədəniyyəti Həbəşistanın şərqində yaranıb, həm də təkzibedilməz buğda toxumu və əl əməyi alətləri-nin qalıqlarını tapmaqla...və məlumatlar "Bitkiçilik seleksiyasının nəzəri əsasları" əsərində (1935) yer alıb.

N.Y.Marr və onun tələbəsi "akademik" B.B.Piotrovski (1908-1990, "Ermənistan SSR" əməkdar elm xadimi), arvadı, arxeoloq-tədqiqatçı R.M.Canpoladyan (1918-2004), oğlu, tarix elmləri doktoru, "professor", 2019-cu ildən İrəvan şəhərinin fəxri vətəndaşı M.B.Piotrovski (1944)... əlbir/dilbir olaraq belə bir uydurma fərziyyə irəli sürmüşlər ki, guya "Bibliya"da "erməni" dağlıq yaylası qədim dünya-"erməni" sivilizasiyasının mərkəzi olmaqla At ev heyvanı kimi əhliləşdirilib, "erməni"lər tərəfindən dünyaya yayılmışdır....Bu fırıldağçı "elm" xadimlərinin hay mənşəli uydurmalarına Macarıstan EA-nın Fəlsəfə institunun Dini nəzəriyyə şöbəsinin rəhbəri tarixçi və ilahiyyatçı alim Qustav Qeçe (1932) 1989-cu ildə Moskva şəhərində "Siyasi nəşrlər" mətbəəsində rus dilində çap etdirdiyi "Bibliya tarixi" əsəri ilə tutarlı cavab vermişdir:

- "Bibliya"da bir kəlmə də olsun "qədim erməni"lərlə bağlı cümlə yazılmayıb...

Amma Avrasiya qurusunda aparılmış arxeoloji tədqiqatlar qızılı Kəhər Atların qədim Türk tayfaları tərəfindən 5000 il əvvəl məxsus olması barədə qiymətli dəlillər bu diyarlarda saxlanılır....

Eləcə də, əski Türkdilli Sak/Saxa/İskit/Skif...tayfalarının qızılı At/Kəhər kultuna mənsubluğunu qədim yunan şairi Homer "İlliada" poemasında (e.ə.VIII əsrə aid tarxi hadisələrin təsvirində), Sak hökmdarı Tomiris, onun qadın cəngavərlərinin dəstəsi ("Çöl/Səhra amazonkaları") haqqında yazarkən təsdiq etmişdir. Hadisələrin coğrafi məkanı kimi Sak/Skif/Sarmat/Massaget...qövmərinin əski yurdları Qara dənizin şimal düzənlərindən Qıpçaq/Biçənək çöllərinin şərqinə kimi əraziləri əhatə etmişdir.

1920-1930-su illərdə Minsulu vadisində Altay dağ qovşağı, Abakan və Bəy çayları hövzəsi, 200-700 m hündürlüklü dağ çöllərində, VI-VIII əsrlərə aid daş nümunələrlə bəzədilmiş At skeletləri olan artefaktlar arxeoloq-professor, SSRİ EA-nın müxbir üzvü S.V.Kiselyov(1905-1962) tərəfindən aşkar edilmişdir ("Qara Sak" məzarlığında, Xançallı, Daşlıq...ərazilərində).

Bu baxımdan Şərqi Qazaxstanın, Dağlıq Altayın "Hökmdarlar vadisi"ndə (Tünlük-1 kurqanında) Sak/Saxa/Skif...hakimlərinə, şahzadələrinə məxsus e.ə.VII-VI əsrlər tarixi kurqanları qiymətli arxeoloji mənbələr (Qazaxstan, Böyük Britaniya, ABŞ, İtaliya, Macarıstan, Belçika, Polşa, Yaponiya...tədqiqatçıları tərəfindən) hesab olunur....Qədim yunan alimi, "Tarixin atası" Herodot Sak/İskit hökmdarlarının dəfnində Atlarının da basdırılmasını xüsusi qeyd etmişdir.

Təsadüfi deyil ki, Altay dağları ətəklərində, Abu/Su-Ob və İrtış çaylarının yuxarı axarlarında, Basaran düzü hövzəsində aparılmış arxeoloji qazıntılar da At/Kəhər kultunun Türk dünyasında xüsusi dini-sakral və milli-mənəvi dəyər daşıdığını sübut etmişdir. Savur/Sabir-Sibir düzəngahının cənubunda (Abu-Su/Ob çayının orta axarlarında, Altay diyarının quzeyində), Türk dilində "sərhəd kənarı" mənasında adlanan Çıx çayı vadisində, Köçərilər nahiyəsində (gerbində At təsviri var), eləcə də, Ordu nahiyəsində 2014-2015-ci illərdə Rusiya EA-nın Sibir Bölməsinin Arxeologiya və etnoqrafiya institutu arxeoloq-tədqiqatçıları tərəfindən e.ə. IX-VIII əsrlər Ərmən mədəniyyəti mərhələsinə (Üst Tunc dövrü) aid artofakt qəbirlərdə əhliləşdirilimiş, tunc bəzəkli At cədələri tapılmışdır.

2021-ci ilin sentyabr ayında Böyük Britaniyanın Kembric şəhərində Futsuilyama muzeyində "Böyük Çöllərin qızlı dövrü" mövzusunda sərgisində Sak/İskit mədəniyyətinin təsviri kimi həm də 2500 illik tarixə malik olan At kultu barədə 300-ə qədər eksponatla məlumat verilmişdir...

Türk xalqlarının milli-mədəni Təbəddülat mərhələlərində At kultunun etnogenetik təməl prinsipləri ilk növbədə:

- kökənli, milli məkan məskunlaşması ilə;
- zootetomik irqi, genoloji bağlılığına görə;
- tarixi-coğrafi yaşam tərzinin, dini-sakral dəyərlərinin səciyyəvi xüsusiyyətlərinə rəğmən;
- "Türk dünyası coğrafiyası"nın sərhədsiz relyef-landşaft örtüyünün təbii hüdudları baxımından.

Digər xalqların milli-mədəni və ictimai-həyati irsindən fərqlənən Türk dünyasının At kultu qədim Sivilizasiya mərhələləri, Təbəddülat dövrləri və əski Dövlət quruculuğu minillikləri... ilə ifadə olunmaqdadır. Bu millikdən və minillikdən Bütöv Azərbaycan səhifəsi də vardır.

Bu sahədə Bütöv Azərbaycan mədəniyyətinin tarixi-coğrafi səhifələri də zəngin və minilliklərlə Zamana sığınır...

(Ardı var)

Qismət YUNUSOĞLU
Bakı Dövlət Universitetinin müəllimi

P.S.Bakı şəhərinin bağlarının birində Dostluq, Sədaqət, İnam, Etibar...rəmzi olaraq 1998-ci ildə Ulu Öndər H.Ə.Əliyevin (1923-2003) doğum tarixinin 75 illiyinə hədiyyə olaraq Gürcüstan Respublikasının prezidenti E.A.Şevardnadze (1928-2014) tərəfindən bağışlanan, tuncdan tökülən Şahə qalxan Kəhər At abidəsi ucaldılıb...

P.S.S. 18-19 iyul 2013-cü il tarixdə YUNESKO-nun Paris şəhərində yerləşən mənzil-qərargahı bağçasında Azərbaycan Respublikasının maddi-tarixi irs abidəsi - Tovuz rayonu, Aşağı Əyyublu kəndindən gətirilmiş, orda XII-XIII əsr tarixindən qalma Daş At heykəli yerləşdirilib.